# SPS MƏLUMAT MƏRKƏZİNİN ƏSAS VƏZİFƏLƏRİ AŞAĞIDAKILARDIR:

> Hər hansı xarici və yerli qida biznesi subyekti və ya Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşı tərəfindən daxil olan sorğulara cavab verilməsi;

> ÜTT-yə və ÜTT üzv dövlətlərinə layihəsi hazırlanan və ya qəbul edilmiş SPS Sazişindən irəli gələn məsələlər üzrə texniki normativ hüquqi aktlar və müvafiq prosedurlar haqqında bildirişlərin verilməsi;

> Ölkədə qəbul olunmuş və ya təklif olunmuş hər hansı qida təhlükəsizliyi, sanitariya-baytarlıq və ya fitosanitariya qaydaları;

> Ölkədə işlədilən hər hansı nəzarət və təftiş prosedurları, istehsal və karantin davranışı, pestisidlərin minimum qalıq miqdarı və qida əlavələrinin təsdiqlənmə prosedurları;

> Risklərin qiymətləndirilməsi prosedurları, nəzərə alınan faktorlar və həmçinin sanitar və ya fitosanitar mühafizənin müvafiq səviyyəsinin müəyyən olunması;

> Ölkənin və ya müvafiq qurumun beynəlxalq sanitariya və fitosanitariya təşkilatlarında və sistemlərində üzvlüyü və iştirakı;

> Ölkənin SPS Sazişinin əhatəsi çərçivəsində ikitərəfli və çoxtərəfli sazişlərdə və müqavilələrdə üzvlüyü və iştirakı; və

> Bu cür sazişlərin və müqavilələrin mətnlərinin paylaşılması.

Sorğu olunan məlumat sorğu göndərənə sorğunun sorğu reyestrinə daxil edildiyi tarixdən etibarən 5 (beş) iş günü ərzində təqdim edilməlidir. Məlumat sorğusunu 5 (beş) iş günü ərzində cavablandırmaq mümkün olmadığı hallarda, sorğu edən bu gecikmə barədə məlumatlandırılmalı və ona sorğunu cavablandırmaq üçün tələb olunan əlavə vaxt bildirilməlidir.

## ÜTT-NİN RƏSMİ DİLLƏRİ:

| İngilis | Fransız | İspan |
|---|---|---|

ÜTT ilə bütün əlaqələrin bu üc rəsmi dildən birində qurulması tələb olunur.

Qeyd: ÜTT üzvlərinin böyük əksəriyyəti bu əlaqələrdə ingilis dilindən istifadə edir. Sorğu əsasında sənədlər tərcümə ilə təmin edilə bilər. Bu halda, sənədlərin tərcümələri SPS Məlumat Mərkəzinin internet səhifəsində də yerləşdirilməlidir.


**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun (AQTİ) nəzdində**

**SPS Məlumat Mərkəzi**

**Ünvan:** Bakı şəhəri, Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi 73C

**Tel:** +994 12 377 00 20 (ext. 549)
**E-poçt:** sps@afsa.gov.az

**Veb:** www.afsi.gov.az



"Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Nəşrdəki məlumatlar Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir və məzmuna görə COWI konsorsiumu tam məsuliyyəti daşıyır."



Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ




# SPS MƏLUMAT MƏRKƏZİ

**ÜTT-nin Sanitar və Fitosanitar Tədbirlərin Tətbiqi haqqında Sazişi**
(Əlavə B, Maddə 10)


Bu layihə DMI Associates (Fransa) və Expertise Advisors (Fransa) təşkilatlarından ibarət COWI konsorsiumun üzvləri tərəfindən birgə həyata keçirilir.

# SPS NƏDİR?

Sanitar və fitosanitar tədbirlər (SPS) - milli hüquq sisteminə xüsusiyyətlərinə uyğun olaraq bütün müvafiq qanunlar, fərmanlar, sərəncamlar, qərarlar, əsasnamələr, tələblər və prosedurlar, habelə, digərləri ilə yanaşı, son məhsul kriteriyası da daxil olmaqla; proseslər və istehsal metodları; sınaq, yoxlama, sertifikatlaşdırma və təsdiq etmə prosedurları; karantin müayinələri, o cümlədən heyvanların və ya bitkilərin daşınması ilə, ya da daşınma zamanı onların yararlı qalması üçün lazım olan materiallar ilə əlaqədar müvafiq tələblər; müvafiq statistika metodlarına dair müddəalar, nümunə götürmə prosedurları və risk qiymətləndirmə metodları; və birbaşa olaraq qida təhlükəsizliyi ilə bağlı qablaşdırma və etiketləşdirmə tələbləri.

## SPS TƏDBİRLƏRİ:

- Yalnız lazım olan səviyyədə tətbiq olunur
- Ticarəti hədsiz dərəcədə məhdudlaşdırmır
- Elmi prinsiplərə əsaslanır
- Beynəlxalq standartlara uyğun olur
- Sağlamlığa dair riskin qiymətləndirilməsinə əsaslanır

## ÜTT-YƏ QƏBUL OLMAZDAN ƏVVƏL NAMİZƏD ÖLKƏNİN SPS SAHƏSİNDƏ ÖHDƏLİKLƏRİ

**Milli qanunvericiliyinin SPS Sazişinə uyğunlaşdırılması:**

> Bütün əsas müddəalar öz əksini tapmalıdır

> Şəffaflıq prinsipinə riayət olunmalıdır

> SPS tədbirlərinin hazırlanması, qəbul olunması və tətbiq edilməsi prosesi aydın şəkildə göstərilməlidir

## SPS HANSI SAHƏLƏRİ ƏHATƏ EDİR?

**Qida təhlükəsizliyi**

↓

(CODEX) KODEKS
ALIMENTARIUS KOMİSSİYASI

**Heyvan sağlamlığı**

↓

(OIE) ÜMUMDÜNYA HEYVAN
SAĞLAMLIĞI TƏŞKİLATI

**Bitki sağlamlığı**

↓

“IPPC” BİTKİ MÜHAFİZƏSİ HAQQINDA
BEYNƏLXALQ KONVENSİYA

## ÜTT-NİN ƏSAS PRİNSİPİ OLAN ŞƏFFAFLIQ PRİNSİPİ NƏDİR?

“Şəffaflıq” ÜTT-nin sazişlərinin fundamental prinsiplərindən biridir. Şəffaflıq beynəlxalq ticarətdə çox əhəmiyyətli məsələdir.

Məqsəd ÜTT-yə üzv dövlətlərin ticarət siyasətləri, qanun və qaydalarının daha aydın və proqnozlaşdırıla bilən olmasına, həmçinin hər biz üzv dövlətin digər üzv dövlətlərin sanitar və fitosanitar tədbirləri barədə məlumatlı olmasına nail olmaqdır.
Bunun üçün aşağıdakılar tələb olunur:

> SPS tədbirlərində olan dəyişikliklər və beynəlxalq standartlarla eyni olmayan hər hansı tədbir barədə ÜTT-nin məlumatlandırılması

> SPS qaydalarının dərc olunması

> Dəyişdirilmiş qaydalara uyğunlaşmaq üçün müəyyən vaxtın verilməsi

> SPS məsələləri üçün Məlumat və Bildiriş mərkəzlərinin yaradılması

## ÜTT-NİN SANİTAR VƏ FİTOSANİTAR TƏDBİRLƏRİN TƏTBİQİ HAQQINDA SAZİŞİ

ÜTT-nin SPS Sazişi bütün ÜTT-yə Üzv ölkələrdən məlumatlandırma prosedurları üzrə məsul olan vahid mərkəzi hökumət orqanı təyin etməyi tələb edir.

(ÜTT-nin SPS Sazişin Əlavə B, Maddə 10)

Hər bir Üzv ölkə və ya maraqlanan Üzv ölkə tərəfindən SPS Sazişindən irəli gələn bütün müvafiq suallara cavabları təmin etmək üçün cavabdeh olan məlumat mərkəzinin olduğunu təmin etməlidir.

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin 30 iyun 2020-ci il tarixli Ü/092 nömrəli əmrinə əsasən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin nəzdində SPS Məlumat Mərkəzi yaradılıb.**